AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**



**Azərbaycan xalqının Ümummilli Lideri
Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə
həsr olunmuş**

# QARABAĞ KİTABXANALARI: TARİXİ, MÜASİR DURUMU VƏ GƏLƏCƏYİ

*mövzusunda*

## RESPUBLİKA ELMİ KONFRANSININ

## MATERİALLARI

*Bakı, 17 iyun 2022-ci il*

**BAKI - 2023**

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Qarabağ kitabxanaları: tarixi, müasir durumu və gələcəyi" mövzusunda Respublika elmi konfransının materialları. Bakı, 17 may 2022-ci il. Bakı: BDU, 2023. – 116 səh.

ISBN: 978-9952-546-36-1

© Bakı Dövlət Universiteti, 2023

# QARABAĞ KİTABXANALARI: DÜNƏNİ, BU GÜNÜ, PERSPEKTİVLƏRİ

Ədibə İsmayılova
*Azərbaycan Milli Kitabxanasının*
*direktor müavini, tarix üzrə fəlsəfə doktoru*

2020-ci il Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsi nəticəsində otuz il ərzində işğal altında olan torpaqlarımızı azad etməsi tariximizə qızıl hərflərlə yazıldı. 27 sentyabr tarixi Azərbaycan xalqının yaddaşından, hərb tariximizdən heç vaxt silinməyəcək. Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü doğma Qarabağımızın azadlığa qovuşdurulması ilə yanaşı, tarixi, mədəni irsimizi də erməni vandallarından xilas etdi. Müzəffər Ordumuz tarix səhifələrimizi qaralamağa, silməyə, saxtalaşdırmağa çalışanlara layiqli dərs verərək yerinə otuzdurdu. Ermənilər xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür namərdliyə əl ataraq çirkin əməllərini illər boyu davam etdiriblər. 30 il müddətində işğal altında saxladıqları Qarabağda dünyada misli görünməmiş talançılıqla məşğul olub, bütün tarixi, dini abidələrimizi məhv ediblər.

Ermənilər ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırıblar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunub, 44 məbəd və 9 məscid təhqir edilib. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min kitab və misilsiz əlyazma nümunələri məhv edilib.

1992-1993-cü illərdə erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu tərəfindən azad edilən rayonlardakı kitabxanaların mövcud durumunu və onların qiymətli kitab fondlarının mühafizə vəziyyətini araşdırmaq və bu barədə Beynəlxalq Kitabxana Təşkilatı olan Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyasına (IFLA-ya) müvafiq məlumatın verilməsi məqsədilə 2020-ci dekabr ayının 3-də Milli Kitabxanada həmin rayonların Mərkəzləşmiş Kitabxana Sistemlərinin direktorları ilə onlayn videokonfrans keçirilmişdir. Konfransda mərkəzi kitabxanaların direktorları çıxış edərək işğaldan azad olunan ərazilərdəki kitabxanalar barədə məlumat verdilər. Direktorların çıxışlarından məlum oldu ki, Şuşa şəhərinin və Xocavənd rayonunun mərkəzi kitabxanalarının binaları istisna olmaqla, digər bütün işğaldan azad olunan rayonlarda rayon, şəhər, qəsəbə və kənd kitabxanalarının binaları tamamilə dağıdılaraq yerlə yeksan edilib, qiymətli kitab fondları isə talan olunaraq yandırılıb. Həmçinin işğaldan azad olunan 10 rayonun ərazisində fəaliyyət göstərən Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsinə daxil olan 734 kitabxana və onların fondlarında olan 4.587.696 nüsxə qiymətli kitab və digər çap məhsulları tamamilə dağıdılıb, yandırılıb və talan olunub. Onlayn konfransda qeyd edildi ki, Şuşa şəhər Mərkəzi Kitabxanası Qarabağın

görkəmli ziyalısı, şair və rəssam Mir Mövsüm Nəvvab tərəfindən 1897-ci ildə yaradılıb və həmin kitabxana açılarkən Mir Mövsüm Nəvvab öz əlyazmalarının bir hissəsini və Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvanın şeirlərindən və çəkdiyi şəkillərdən ibarət dəftərləri də həmin kitabxanaya hədiyyə edib. Hazırda həmin qiymətli hədiyyələrdən bu kitabxanada əsər-əlamət qalmayıb, onlar ya yandırılıb, yaxud da xarici ölkələrə daşınıb. Qubadlı rayon Mərkəzi Kitabxanasında görkəmli el şairi Seyid Nigarinin qiymətli əlyazması da erməni vandalları tərəfindən məhv edilib. Bütün bu faktlar göstərir ki, erməni işğalçılarının əsas məqsədi Azərbaycan xalqına məxsus olan qiymətli sərvətlərin məhv olunması və bu bölgələrdə Azərbaycana məxsus izin tamamilə silinməsi olub. Konfransda qeyd edildi ki, bütün bu vəhşiliklər barədə məlumatları beynəlxalq kitabxana təşkilatı olan IFLA-ya təqdim etməklə erməni işğalından azad olunan rayonların kitabxana işçilərinin və bütün Azərbaycan kitabxanaçılar ordusunun haqq səsini bu beynəlxalq təşkilata çatdırmaq vacibdir.

Telekonfrans iştirakçıları 1992-1993-cü illərdə erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş və bu gün işğaldan azad edilən rayonlarda bir vaxtlar fəaliyyət göstərən kitabxanaların tamamilə məhv edildiyi və onların fondlarında mühafizə edilən qiymətli kitabların erməni vandalları tərəfindən talan olunaraq dağıdılması, habelə bütün şəhər və kənd kitabxanalarının binalarının yerlə-yeksan olunduğu barədə məlumatların beynəlxalq kitabxana təşkilatı olan IFLA-ya çatdırılmasını Milli Kitabxananın direktorundan xahiş ediblər. 8 dekabr 2020-ci il tarixində Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov videokonfransın yekun qərarına əsasən Azərbaycan Respublikasının 1992-1993-cü illərdə Ermənistan tərəfindən işğal edilmiş və 2020-ci ilin 27 sentyabr-10 noyabr tarixlərində işğaldan azad edilən 10 rayonunun Mərkəzi Kitabxanaları və Azərbaycan Milli Kitabxanası adından İFLA-nın Prezidenti xanım Kristin Makenziyə müraciət edib. Müraciətdə qeyd edilir: *"1992-1993-cü illərdə Ermənistan Azərbaycanın ərazisinin 20 faizini təşkil edən keçmiş Dağlıq Qarabağ vilayətini və ona bitişik olan 7 rayonu işğal etmişdi. İşğal zonasında Azərbaycanın çoxlu sayda digər mədəniyyət abidələri ilə yanaşı, 4,6 milyon nüsxə qiymətli kitab fonduna malik olan 975 kitabxanası qalmışdı və 30 il müddətində bu kitabxanaların taleyi haqqında heç bir məlumat yox idi. 2020-ci ilin 26 sentyabrında Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təxribat tədbirlərinə qarşı Azərbaycan ordusunun sentyabrın 27-də başladığı və 44 gün davam edən beynəlxalq miqyasda tanınan öz torpaqlarının erməni işğalından azad etmək uğrunda apardığı müharibə nəticəsində azad olunan 10 rayonun ərazilərinə ilkin baxış keçirilərkən məlum olmuşdur ki, işğal zonasında qalan kitabxanaların binaları (cəmi 2 kitabxananın - Şuşa və Hadrut rayon mərkəzi kitabxanalarının binaları istisna olmaqla) tamamilə dağıdılmış və yerlə-yeksan olunmuşdur. Onların fondlarında mühafizə olunan 4,6 milyon nüsxə qiymətli kitablar tamamilə talanmış və yandırılmışdır ki, bu da UNESCO-nun müvafiq konvensiyalarının tələblərinə tamamilə ziddir və hərbi münaqişələr*

*zamanı döyüş bölgələrində mədəniyyət sərvətlərinin toxunulmazlığına dair beynəlxalq konvensiyaların tələblərinə hörmətsizlikdir. Hətta Şuşa rayon Mərkəzi Kitabxanasının yaradıcısı görkəmli Azərbaycan şairi və rəssamı Mir Möhsün Nəvvabın 1897-ci ildə Şuşa kitabxanasına bağışladığı qiymətli müəllif əlyazmaları və görkəmli ictimai xadim, xeyriyyəçi və şairə Xurşudbanu Natəvanın şeirlərinin əlyazmaları və rəsmlərinin eskizləri Ermənistana aparılaraq xarici ölkələrə daşınmışdır. 30 il işğal zonasında qalan kitabxanaların binalarının dağıntılarının qalıqlarını əks etdirən fotoşəkilləri Sizə təqdim edərək erməni tərəfinin həyata keçirdiyi vandalizm hərəkətlərinə müvafiq qiymət verilməsini xahiş edirik. Eyni zamanda İFLA tərəfindən müstəqil ekspertlərin göndərilməsi təqdirində müraciətdə yazdıqlarımızın əyani sübutunu görəcəyinizə Sizi əmin edirik."*

19 yanvar 2021-ci il tarixində İFLA-nın Prezidenti xanım Kristin Makenzi Azərbaycan Milli Kitabxanasının direktorunun müraciətini cavablandırıb. İFLA-nın Prezidenti xanım Kristin Makenzi cavab məktubunda qeyd edir:

*"Hörmətli professor Tahirov, hörmətli direktorlar,*

*Kitabxanalara dəymiş zərərlə bağlı 8 dekabr tarixli məktubunuza görə təşəkkürlər. Hər şeydən əvvəl, Sizi əmin edə bilərəm ki, IFLA qərəzli şəkildə qəza və ya səhlənkarlıqla kitabxanalara, onların fondlarına, işçilərinə və istifadəçilərinə dəyən bütün zərərləri qınayır. Kitabxanaların və onların işçilərinin fəaliyyəti nainki indiki dövrdə əhəmiyyətlidir, eyni zamanda gələcək nəsillərin də mövcud materiallardan istifadə etmələrini və öyrənə bilmələrini təmin edir.*

*Blue Shield ("Mavi Qalxan") üzvü və UNESCO-nun yaxın tərəfdaşı olan İFLA-ya göndərdiyiniz şəkilləri qiymətləndirmələri məqsədilə hər iki təşkilatla paylaşmağımız üçün icazə istərdik. Eyni zamanda, şərtlər imkan verdikdə, vəziyyəti yerində qiymətləndirmək üçün UNESCO-nun təşkil etdiyi hər hansı bir missiyada iştirak edə biləcək mütəxəssislər təklif etməyə hazırıq."*

Milli Kitabxananın rəhbərliyi müraciəti və fotoları UNESCO-ya və Blue Shield-ə göndərməyi məqsədəuyğun hesab etdi, həmçinin işğaldan azad edilmiş bölgələrdəki mədəniyyət abidələri və kitabxanaların vəziyyətinin dəyərləndirməsi üçün UNESCO-nun bir missiya təşkil etməsində və həmin missiyada İFLA-nın da iştirakını dəyərləndirdi. Missiyanın Azərbaycana səfəri ilə əlaqədar lazımi dəstək göstərməyə Azərbaycan Milli Kitabxanasının hazır olduğunu qeyd etdi.

Bu gün Azərbaycanda bütün sahələrdə quruculuq, inkişaf, islahat, yüksəliş müşahidə olunmaqdadır. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. Hörmətli Prezidentimiz cənab İlham Əliyevin işğaldan azad olunan rayonlara – Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Ağdama səfərləri zamanı erməni işğalçıları tərəfindən tamamilə dağıdılmış evləri və binaları göstərərək dediyi kimi *"...Biz bunların hamısını bərpa edəcəyik"* çağırışına qoşulan Milli Kitabxana Mədəniyyət Nazirliyi ilə birgə dirçəlməkdə olan işğaldan azad olunmuş ərazilərimizdə bərpa olunacaq kitabxanalar üçün

kitabtoplama kampaniyasına başladı. 2021-ci il yanvar ayının 15-də Milli Kitabxanada Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu tərəfindən 44 günlük müharibə nəticəsində Ermənistan işğalından azad olunmuş ərazilərimizdə 90-cı illərin əvvəllərinədək fəaliyyət göstərmiş kitabxanaların kitab fondlarının bərpası ilə əlaqədar Milli Kitabxananın keçirdiyi kitabtoplama kampaniyasının təqdimatı oldu. Kitabxananın direktoru, professor Kərim Tahirov bütün ziyalıları və Azərbaycan vətəndaşlarını, habelə bütün kitabsevərləri "Qarabağa kitabla gedək" layihəsində iştirak etməyə səslədi. Akademik İsa Həbibbəyli, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi, AMEA-nın "Elm" nəşriyyatı və ayrı-ayrı ziyalılar, müəlliflər aksiyaya qoşuldular. "Qarabağa kitabla gedək" layihəsinə qoşulanların sayı getdikcə artır və Qarabağ fonduna 70 000 mindən artıq kitab toplanmışdır. Bu gün işğaldan azad edilən bütün ərazilərimizdə böyük quruculuq, tikinti-bərpa işlərinə başlanıb. Qarabağda müasir infrastruktur qurulur. İşğaldan azad edilən bölgələrimizdəki bütün tarixi, mədəni, dini abidələrimiz bərpa olunaraq əvvəlki görkəminə qaytarılır.Tezliklə işğaldan azad edilən bölgələrimizdəki kitabxanaların bərpası işinə də başlanacaq. Bu işdə Azərbaycan Milli Kitabxanası və digər kitabxanalar fəal iştirak edəcəklər.

# MÜNDƏRİCAT

## KİTABXANAŞÜNASLIQ BÖLMƏSİ

**Elçin Əhmədov**
KİTABXANAŞÜNASLIĞIN FUNKSİYALARI ........ 5
**Nigar İsmayılova**
ERMƏNİSTANIN İŞĞALINA QƏDƏR QARABAĞ KİTABXANALARI: STATİSTİKA ........ 7
**Ədibə İsmayılova**
QARABAĞ KİTABXANALARI: DÜNƏNİ, BU GÜNÜ, PERSPEKTİVLƏRİ ........ 9
**Nazlı Həsənova**
QARABAĞ KİTABXANALARININ GƏLƏCƏYİ ÜÇÜN
SMART KİTABXANALAR KONSEPSİYASI ........ 13
**Eldəniz Məmmədov**
XIX ƏSRDƏ QARABAĞDA KİTAB VƏ KİTABXANA MƏDƏNİYYƏTİ ........ 16
**Sahibə Əliyeva**
KİTABXANALARIN SOSİAL MAHİYYƏTİ ........ 19
**Hicran Zeynalova**
QARABAĞDA KİTABXANA İNFRASTRUKTURU HAQQINDA ........ 21
**Sevda Məmmədova**
ALİ MƏKTƏB KİTABXANALARININ FONDLARININ KOMPLEKTLƏŞDİRİLMƏSİ:
PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI ........ 22
**Aysel Həsənova**
MƏKTƏB KİTABXANALARINDA AZYAŞLILARIN MÜTALİƏSİNİN
TƏŞKİLİ FORMALARI ........ 24
**Könül Kərimova**
QARABAĞ KİTABXANALARININ BƏRPASINDA MİLLİ KİTABXANANIN ROLU ........ 26
**Aysel Səmədova**
KİTABXANA İNFORMASİYA TEXNOLOGİYALARININ
TEXNİKİ TƏMİNATI MƏSƏLƏLƏRİ ........ 28
**Sona Əli-zadə**
QARABAĞDA KİTABXANA İŞİNİN BƏRPASI ........ 30
**Günay Musayeva**
RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANASINDA İNFORMASİYA-KOMMUNİKASİYA
TEXNOLOGİYALARININ TƏTBİQİ ........ 31